


# Zəngəzur dəhlizi Azərbaycanın geosiyasi və geoiqtisadi çəkisini daha da artıracaq

***İkinci Qarabağ müharibəsindən sonra Cənubi Qafqaz regionunun və Xəzər dənizi hövzəsinin siyasi mənzərəsi nəzərəçarpacaq dərəcədə dəyişib. Azərbaycanın inamlı qələbəsi regional əməkdaşlıq, qarşılıqlı əlaqə və tranzit dəhlizlərinin formalaşması üçün yeni imkanlar açıb. Belə ki, 44 gün davam edən hərbi əməliyyatlar nəticəsində Azərbaycan Ordusunun işğal altındakı torpaqları azad etməsi və Rusiya, Azərbaycan və Ermənistan arasında imzalanmış üçtərəfli Bəyanatın həyata keçirilməsi ilə region müharibə vəziyyətindən çıxaraq, iqtisadi dirçəliş dövrünə qədəm qoyub, yeni nəqliyyat marşrutlarının inkişaf etdirilməsinə şərait yaradıb.***

Azərbaycan, Rusiya və Ermənistan arasında tarixi bəyanatına 2020-ci ilin noyabrında Dağlıq Qarabağ münaqişəsinə son qoydu, Cənubi Qafqaz regionunda, eləcə də Xəzər dənizi hövzəsində davamlı regional əməkdaşlıq, sabitlik və təhlükəsizlik şanslarını artırdı. Əldə edilən razılaşma, həmçinin Qarabağ münaqişəsinə görə 30 ilə yaxındır fəaliyyət göstərməyən nəqliyyat magistrallarının bərpasını nəzərdə tutur və bu kontekstdə Azərbaycan Prezidenti İlham Əliyevin hər zaman önəmini vurğuladığı Zəngəzur dəhlizi ön plana çıxır. Xüsusilə vurğulamaq lazımdır ki, Azərbaycanı Ermənistan vasitəsilə Türkiyə ilə birləşdirəcək Zəngəzur dəhlizi də daxil olmaqla, bütün regional nəqliyyat marşrutlarının açılması ilə bağlı müddəanın 10 noyabr bəyanatına daxil edilməsi rəsmi Bakının həm döyüş meydanlarında, həm də danışıqlar masası arxasında qazandığı diplomatik qələbəsi kimi qiymətləndirilir.

Ümumiyyətlə, Zəngəzur dəhlizi, ilk növbədə, Mərkəzi Asiya, Azərbaycan və Ermənistanı Türkiyəyə birləşdirəcək çoxşaxəli sosial-iqtisadi, geosiyasi və geostrateji dividentlərə malikdir. Mütəxəssislərin fikrincə, bu dəhliz Rusiya, Azərbaycan, Türkiyə və Ermənistan arasında dəmir yolu şəbəkəsini genişləndirəcək və regional ticarət fəaliyyətlərinə müsbət təsir göstərəcək. Eyni zamanda, Zəngəzur dəhlizinin gələcək barışıq və iqtisadi əməkdaşlığa da kömək edəcəyi güman olunur. Azərbaycanın Avrasiya nəqliyyat qovşağına çevrilmək məqsədinə doğru atılmış mühüm addım kimi Zəngəzur dəhlizinin geosiyasi və geoiqtisadi əhəmiyyəti də çox böyükdür. Bu mənada siyasi şərhçilər yaxın gələcəkdə Zəngəzur dəhlizinin Cənubi Qafqaz və Xəzər dənizi hövzəsində oyun qaydalarını dəyişdirəcək bir dəhlizə çevriləcəyini düşünürlər. Belə ki, bu dəhlizin fəaliyyətə başlaması Şərq–Qərb və Şimal–Cənub nəqliyyat dəhlizləri daxil olmaqla Xəzər nəqliyyat şəbəkəsini daha da gücləndirəcək, həmçinin Xəzər dənizindən Avropaya neft və qaz kəməri sisteminin tikintisini asanlaşdıracaq. Bu, artıq Avropa İttifaqı (Aİ), ABŞ, Rusiya və Çində qaz təchizatı zəncirlərində mühüm rol oynayan regionun tranzit potensialını daha da artıracaq. Zəngəzur dəhlizinin təhlili təsdiqləyir ki, o, Rusiya və Çin üçün strateji əhəmiyyət kəsb edən Avropa və Asiyanı birləşdirən nəqliyyat dəhlizinin fəaliyyətinə də imkan verir.

Beləliklə, Zəngəzur dəhlizi özündə bütün region ölkələri üçün böyük iqtisadi, biznes, investisiya və kommunikasiyalar təklifini ehtiva edir. Bu, Azərbaycanın Şərq–Qərb və Şimal–Cənub nəqliyyat dəhlizlərində mövqeyini əhəmiyyətli dərəcədə yaxşılaşdıracaq. Çünki tarixi İpək yolunun üzərində yerləşir və Avropa ilə Asiya arasında mühüm logistika qovşağına çevrilmək potensialını daha da gücləndirir.

Şərq–Qərb dəhlizi Çin və Aİ üçün böyük əhəmiyyət kəsb edir. Hər iki tərəfin 2019-cu ildə ümumi ticarət dövriyyəsi 560 milyard avro təşkil edib və indi Çin və Aİ arasında yeni İnvestisiya Sazişinin imzalanmasından sonra ehtimallar daha da artıb.

Zəngəzur dəhlizi, eyni zamanda, Türkiyə ilə Orta Asiya arasında ticarət, eləcə də Türkiyə ilə Çin arasında ticarət üçün həyati əhəmiyyət kəsb edir. Bundan əlavə, Zəngəzur dəhlizi türkdilli dövlətləri arasında ticari-iqtisadi əlaqələri də keyfiyyətcə yeni müstəviyə keçirəcək. Prezident İlham Əliyevin də vurğuladığı kimi, Zəngəzurdan keçən nəqliyyat, kommunikasiya, infrastruktur layihələri bütün türk dünyasını birləşdirəcək, eyni zamanda, digər ölkələr üçün əlavə imkanlar yaradacaq.

Mütəxəssislərin sözlərinə görə, Zəngəzur dəhlizinin açılması Türkiyənin Mərkəzi Asiya ilə Çini birləşdirən yeni logistika dəhlizinə sahib olmasına imkan yaradacaq. Sözügedən dəhlizdən Rusiya və Ermənistan da faydalanacaq. Dəhliz, həmçinin Rusiyanın Türkiyə üzərindən Yaxın Şərq bazarlarına çıxışı üçün alternativ yol təqdim edəcək. Bu, həm də Rusiya üçün Ermənistana birbaşa quru marşrutu əldə etmək baxımından xüsusi əhəmiyyət daşıyır.

30 ildir işğalçılıq siyasətinin girovuna çevrilmiş Ermənistan da dəhlizin işə düşməsindən faydalanacaq. Belə ki, əsas ticarət tərəfdaşına – Rusiyaya quru yolunun olmaması Ermənistanın xarici iqtisadi əlaqələrinə və iqtisadi təhlükəsizliyinə mənfi təsir göstərib.

Bununla yanaşı, Zəngəzur dəhlizi Ermənistana digər ticarət tərəfdaşı olan İranla dəmir yolu əlaqəsi əldə etmək imkanı da yaradacaq. Əvvəllər lazımi maliyyə resursları olmadığından və xarici investisiyaları cəlb edə bilmədiyindən Ermənistan öz ərazisindən İrana dəmir yolu çəkə bilmirdi. Uzun illərdir, beynəlxalq maliyyə institutları, xarici dövlətlər, hətta, Ermənistan dövləti belə İran və Ermənistandan keçməsi nəzərdə tutulan və 3,5 milyard ABŞ dolları dəyərində olan yeni dəmir yolu xəttinin maliyyələşdirilməsinə nail ola bilməyiblər. İndi İran və Ermənistan arasında yükdaşımaları bu dəhliz vasitəsilə həyata keçirilə bilər. Azərbaycan və Türkiyə ilə ticarət əlaqələrini bərpa etməklə dəhliz, həm də, Ermənistanın iqtisadi təcriddən çıxmasına kömək edəcək. Gələcəkdə Mərkəzi Asiya ilə Türkiyə arasında nəzərdə tutulan Transxəzər təbii boru kəməri reallaşarsa, Ermənistan tranzit ölkə kimi də faydalana bilər. Ümumiyyətlə, Zəngəzur dəhlizindən istifadə region dövlətləri üçün uzunmüddətli sabitliyi təmin edəcək. Bu gün yeni geosiyasi mənzərə və geostrateji reallıq regionun bütün ölkələri üçün getdikcə daha çox birbaşa xarici sərmayə cəlb edilməsinə yeni imkanlar yaradıb və buna görə də, Ermənistan bu reallığı qəbul etməli, onun üçün yaranmış şansı əldən qaçırmamalıdır.

Əlbəttə, tranzit potensialının inkişafı və beynəlxalq bazarlarda mövqelərin möhkəmləndirilməsi istənilən dövlət üçün mühüm geosiyasi və geoiqtisadi vəzifədir. Regionun sürətlə inkişaf edən ölkəsi kimi Azərbaycan da ticarətin asanlaşdırılması üçün beynəlxalq tranzit yolların yaradılmasına və inkişaf etdirilməsinə, eyni zamanda, mövcud nəqliyyat-kommunikasiya potensialının artırılmasına xüsusi diqqət yetirir. Bu mənada Azərbaycanın Zəngəzur dəhlizinin işə salınmasına yönəlmiş ciddi addımlar atması rəsmi Bakının regional inkişafa yönəlmiş siyasətinin mahiyyətinə uyğundur. Hazırda Naxçıvan Muxtar Respublikasına çıxış imkan verən Zəngəzur nəqliyyat dəhlizinin Azərbaycan tərəfindəki Horadiz–Cəbrayıl–Zəngilan–Ağbənd hissəsinin layihəsi hazırlanır və paralel olaraq tikintisi aparılır. Zəngəzur dəhlizi yalnız Qafqaz üçün deyil, daha geniş anlamda region üçün strateji əhəmiyyətə malikdir. Təbii ki, bölgənin digər dövlətləri üçün də geniş imkanlar yaradacaq Zəngəzur dəhlizi Azərbaycanın mövqeyini gücləndirəcək və geosiyasi əhəmiyyətini artıracaq.

Bir sözlə, Zəngəzur dəhlizi vasitəsilə dövlətlərarası inteqrasiyanın sürətləndirilməsi, Qərblə Şərq, Şimalla Cənub arasındakı yükdaşımaların intensivliyinin artırılması, beynəlxalq ticarət əməliyyatlarının genişləndirilməsi, nəqliyyat və logistika sektorunun əhəmiyyətli səviyyədə inkişaf etdirilməsi sayəsində ölkəmizin iqtisadi qüdrətinin dəfələrlə artmasına təkan verəcək. Ən əsası, Zəngəzur dəhlizinin yaradılması ilə formalaşan yeni iqtisadi konyuktura Asiya və Avropanın nəqliyyat infrastrukturunda xüsusi önəmə malik olacaq, nəticədə Azərbaycanın geosiyasi və geoiqtisadi çəkisinin daha da artmasına şərait yaradacaq.

***Səbuhi MƏMMƏDOV,***
***"Xalq qəzeti"***

Xalq qəzeti .- 2022.- 6 mart.- S.4.